Türküstan

1 – 7 dekabr 2020-ci il



# Qəhrəman döyüşçülərimiz:

## Baş gizir Ramin Məmmədov



***Azərbaycan ordusu 44 gün davam edən döyüşlər zamanı Ermənistanı diz çökdürdü və 27 il bundan əvvəl işğal edilmiş ərazilərimizi düşməndən azad edərək tarixi bir qələbəyə imza atdı. Təbii ki, Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında qazanılan bu qələbələrdə düşmənə ağır zərbələr vuraraq misilsiz qəhrəmanlıq və şücaət göstərən hərbçilərimizin payı kifayət qədər böyükdür. Düşmənlə savaşda ona qan udduran qəhrəmanlarımızdan biri də Baş gizir Məmmədov Ramin Mehdi oğludur.***

1981-ci il yanvar ayının 8-də Şamaxı şəhərində anadan olan Ramin Məmmədov həqiqi hərbi xidməti başa vurduqdan sonra Daxili Qoşunlarda, sonra isə Milli orduda Vətənə əsl övlad kimi qulluq edir. Baş gizir 21 ildir ki, doğma torpaqlarımızın düşməndən müdafiəsində dayanıb və bu müddət ərzində peşəkar hərbçi olduğunu dəfələrlə nümayiş etdirib. Bu ilin sentyabr ayının 27-də Ermənistanın ölkəmizə hücumunun qarşısını alaraq düşmənə əks zərbələr endirən şanlı Azərbaycan ordusunun ön sıralarında vuruşan Baş gizir Ramin Məmmədov Füzuli istiqamətində gedən döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi göstərib. Bölük komandiri kimi tabeliyində olan əsgərləri ilə birgə düşmənə ağır zərbələr endirən Baş gizir Ramin Məmmədov Füzulinin azad edilməsində xüsusi fərqlənib. Onun bölüyü düşmənin möhkəmləndirilmiş müdafiə sistemlərini darmadağın edib və bu zaman işğalçı ordunun onlarla əsgəri və hərbi texnikası məhv edilib. Döyüşlərin birində düşmənin hücumunun qarşısını alan zaman Baş gizir Ramin Məmmədovun sərrast atəşi ilə bir neçə düşmən tankı məhv edilib. Füzulinin alınmasında özünəməxsus xidmətləri olan Baş gizir Ramin Məmmədov həmçinin Çəbrayıl, Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin Hakuki, Çanaxçı, Sığınaq, Düdükçü, Banacur kəndlərinin, Şuşikəndin və Şuşanın azad edilməsində iştirak edib. Baş gizir Ramin Məmmədov bu gün də şanlı ordumuzda xidmətini davam etdirir. O deyir ki, Ali Baş Komandan əmr etsə hər an yeni döyüşlərdə iştirak etməyə hazırdır.

Ramin Məmmədov: "Torpaqlarımızı azad etməkdən şərəfli bir iş ola bilməz. Şadam ki, düşmən üzərində qələbədə mənim də payım var. Biz səbirsizliklə Bakıda keçiriləcək qələbə paradını gözləyirik. Bu parad şanlı ordumuzun, müstəqilliyimizin tarixində şərəfli bir hadisə olacaq və yenilməz, məğlubedilməz Azərbaycan ordusunun gücünü və qüdrətini dünyaya bir daha nümayiş etdirəcək. Mən fəxr edirəm ki, qəhrəman Azərbaycan ordusunda xidmət edirəm",-deyir.







*Qeyd edək ki, ailəsi, həyat yoldaşı və iki övladı da qəhrəman Baş gizir Ramin Məmmədovla fəxr edir və onunla qürur duyduqlarını bildirirlər.*

*Biz də öz növbəmizdə Baş gizir Ramin Məmmədova bu şərəfli yolda uğurlar və yeni-yeni qələbələr arzulayırıq. Yolunuz açıq, qələbələr daim sizinlə, şanlı ordumuzla olsun.*

**Murad Şahməmmədov**

# Biz qələbə qazandıq!

***Şuşa alınan gün nənəm ağlayırdı. O biri nənəm Qətibə də telefonda ağladı. Mənim əziz anam dedi ki, bu sevinc göz yaşlandı. Axı onlar ömürlərinin çoxunu Qarabağlı Azərbaycanda yaşamışdılar. Qareabağın itirilməsi onlar üçün zülüm idi.***

Bizi 10 noyabrda atam Göyçaydan Gəncəyə gətirdiş Mənim balaca qardaşım Ömər və mən yolboyu başımızı maşının poəncərəsindən çıxarıb qışqırırdıq—Qarabaq—Azərbaycandır!

Biz Gəncəyə çatanda bütün şəhər bizim üçrəngli bayrağımıza bürünmüşdü. Mənim 10 yaşım var, ancaq mən heç vaxt belə sevinmımişdim. Heç mənə ad günlərimdə sevimli hədiyyələrim bağışlalanda da mən bu dərəcə sevinməmişdim.

Bundan qabaq Gəncədə atam mənim anama çoxlu pul vermişdirki, bizə hər şey alsın.Ancaq böyük qardaşım Kəmran dedi ki heç nə istəməyin. O pullara bizim cəpədə Döyüşən əskərimiz üçün yardım alınacaq. Həm peçenye, cürbəcür şirniyatlar, həm də çoxlu siqaret alınacaq.

Mən bilmirdi ki, əskərlər siqaeüt çəkir. Heç mən də, Ömər də anamdan incimədik. Ancaq fikirləşirım ki, gərək anam bizə də nəsə alaydı....

***İndi mən yuxumda da üçrəngli Azərbaycan bayrağımızı görürəm. O hər yaerdə dalğalanır.***

***Nənəm deyirki, Allah bayrağımızı uca eləsin. Amin!***

**Tamerlan Yusifzadə**
**Gəncə şəhəri,**
**29 saylı məktəbin şagirdi**